Bu mərhələnin nəticələri 15 gün ərzində elan olunacaq.

Olimpiadalarda Bakı şəhəri üzrə 3473, bölgələrdən 20600 nəfər şagird iştirak edib. IX, X və XI sinif şagirdləri Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə öz biliklərini nümayiş etdiriblər.

Tapşırıqlar münsiflər heyəti tərəfindən məktəb proqramına uyğun qapalı test sualları formasında tərtib olunub. Rayon (şəhər) mərhələsində Azərbaycan dili, ədəbiyyat və riyaziyyat fənləri üzrə bilik yarışına maraq göstərən şagirdlər daha çox olub. İnformatika və biologiya fənləri üzrə olimpiadalarda isə nisbətən az şagird iştirak edib.

Bu mərhələdə uğur qazanan şagirdlər Respublika mərhələsinin yarımfinal turunda iştirak edəcəklər.